**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ELMİN İNKİŞAFI FONDU**

**Azərbaycan Respublikasının Prezidenti yanında**

**Elmin İnkişafı Fondunun Gənc alim və mütəxəssislərin**

**4-cü birgə "Mənim ilk qrantım"müsabiqəsinin**

**(EİF/GAM-4-BGM-GİN-2017-3(29)) qalibi olmuş**

**layihənin yerinə yetirilməsi üzrə aralıq**

***(rüblük olaraq 2-ci mərhələ)***

# ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı:**Müasir Azərbaycanda gənclərin sosial–psixoloji mənzərəsi**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılov Şahin Əmir oğlu**

Qrantın məbləği:**50000 manat**

Layihənin nömrəsi: **EİF/GAM-4-BGM-GİN-2017-3(29)-19/16/5-M-19**

Müqavilənin imzalanma tarixi:**13 aprel 2018 –ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti**: 12 ay**

Layihənin icra müddəti (başlama və bitmətarixi): **01 may 2018-ci il- 01 may 2019-cu il**

*Layihənin I **mərhələ** üzrə (rüb) məbləği:*__________

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş elmi işlər |

*(burada doldurmalı)*

Bu mərhələdə 2000 nəfərə yaxın tələbə gənc arasında keçirilən sosioloji sorğular metodoloji baxımdan düzgün hazırlanmış, aydın seçmə metodları tətbiq edilmişdir. Əldə edilən nəticələr gənclərin gündəlik həyatda üzləşdikləri və üzləşə biləcəkləri bir çox məqamları üzə çıxarır.Daha çox narahat edici məqam isə müasir dövrdə gənclərin yaşamaq üçün digər ölkələri seçmək fikridir. Keçirilən bu sorğu nəticəsində gənclərin sosial-psixoloji problemlərinin aspektləri aşkarlanmışdır.Layihənin bu mərhələsində yerinə yetiriləcək işlərin dərəcəsinə gəlincə, qeyd etmək lazımdır ki, nəzərdə tutulan sorğuların 70 %-i görülmüşdür.Sorğuda həm yeniyetmə, həm də gənclik yaş dövrü kateqoriyasına aid şəxslər iştirak etmişlər.Bu mərhələdə həm də könüllü şəxslər layihənin icrası zamanı nəzərdə tutulan sorğu məqsədilə treninqlərə cəlb edilmiş, 3 günlük treninqlər nəticəsində 35 könüllü şəxs intervülərin aparılması metodikasına yiyələnmişdir.

Bakı şəhərində Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedoqoji Universitetində tələbə arasında sorğular keçirilmişdir. Aparılan sosioloji sorğular təhlil edilən problemi tam üzə çıxarmışdır.Mövcud vəziyyətin öyrənilməsi məqsədilə dərinləşmiş intervülər də nəzərdə tutulur.Gəncləri əhatə edən problemlərin sosial-psixoloji bağlılığında mühüm faktorlar aşkarlanmışdır. Sorğu nəticəsində gənclərin başqa ölkələrə təhsil almaq üçün meyl etməsinin səbəbləri aşkarlanmışdır.Hazırda regionlar üzrə sorğuların davam etdirilməsi işləri gedir.

Bu mərhələdə Bakı və Gədəbəydə gənclərin həyatının sosial-psixoloji vəziyyətinin araşdırılması istiqamətində sorğular keçirilmişdir. Azərbaycanda gənclərin nəzərdə tutulan bölgələr üzrə psixoloji vəziyyətinin öyrənilməsi üçün çöl-tədqiqatları aparılmış, ilkin məlumatlar toplanılmış, eyni zamanda onları düşündürən sosial problemlərin vacıb istiqamətləri araşdırılmışdır. Birinci mərhələdə həm də təhlil edilən mövzu ətrafında bukletlər hazırlanaraq

tamamlanmışdır.

Bu zaman alınan nəticələr təhlil edilərək tədqiqatın növbəti mərhələsində keçiriləcək sosioloji sorğunun reprezetativliyinə tətbiq edilməsi məqsədi daşıyır.

Azərbaycanda gənclər üçün müasir dövrdə mənfi psixoloji təəssürat yaradacaq amillərin təfərüatları fərqlidir Eyni zamanda, burada müasir elmi mənbələrə istinadla yanaşı, müqayisəli metodlar da seçilmişdir. Tədqiqatda həlledici məsələ olaraq sosioloji sorğunu əhatəli tərtib etmək qoyulan suallarla gənclərin üzləşdikləri mənəvi-psixoloji, sosial-iqtisadi faktorların daxil edilməsi nəzərə alınmışdır. Cəmiyyətin sosial siyasi və mədəni həyatında gənclərin fəaliyyəti həmişə xüsusi əhəmiyyətə malik olmuşdur. Müasir dövrdə Qloballaşma və antiqloballaşma hərəkatlarının da önündə məhz gənclərin fəaliyyətini daha aydın görürük. Bu gün gənclər öz fəaliyyətlərində təşkilatlanmış formada çalışmalı, milli dövlətçilik ənənələrimiz və milli dəyərlərimizin qorunması istiqamətində fəaliyyətlərini daha da gücləndirməlidir. Bu da onların daha da məqsədyönlü fəaliyyət göstərmələrinə və daha da təşkilatlanmış formada çalışmalarına səbəb olur. Bu istqamətdə söylənilən mühazirələr layihənin icrası prosesində effektliliyi artıraraq maarifləndirmə işlərində əhəmiyyətli rol oynamışdır. Layihənin ilkin mərhələsi çərçivəsində sosioloji sorğunun sualları tərtib edilmiş və reprezentativliyə cavab verəcək tədqiqat aparılması üçün məlumat bazası yaradılaraq, seçmə üsulu müəyyən edilimişdir. Azərbaycan gəncliyinin sosial- psixoloji problemlərin öyrənilməsi bu gün daha aktualdır.

**2** Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli)

*(burada doldurmalı)*

| | |
|---|---|
| | Kitabın materialları hazırlanmış, əlavə olaraq iki elmi məqalə nəşr üçün xarici elmi dərgilərə təqdim edilib.<br>Sorğuların bu mərhələdə keçirilməsi işləri 70%,<br>kitabın yazılması işi 50 % yerinə yetirilmişdir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *(burada doldurmalı)Ilk dəfə olaraq bu layihə çərçivəsində aparılan araşdırma nəticəsində gənclərlə bağlı aşaöıdakı elmi yeniliklər əldə edilmişdir Gənclərin (sözügedən bölgələr üzrə statistik məlumatları toplanılmış*<br>Təsadüfi seçmə metodikası nəticəsində ən vacib problemlər haqqında ilkin məlumat bazası toplanılmışdır..<br>Sorğu aparılacaq kontingentin demoqrafik göstəriciləri tərtib edilərək zəruri məlumat bazasına daxil edilmişdir.<br>Layihənin məqsədlərinə cavab verəcək vəzifələrin nəzəri əsasları formalaşdırılaraq işin ilkin mərhələsinə yekun vurulmuşdur. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Daha elmi üsullardan biri kimi problemin ətrafında analıtik təhlilin qurulması, metodoloji bazanın yaradılmasıdır. Eyni zamanda tədqiqatın məqsədlərinə müvafiq olaraq sosioloji tədqiqatın nəticəsində yeni məlumatlar əldə edilmişdir. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |

| | |
|---|---|
| | *(burada doldurmalı)*<br>*Layihənin* bu mərhələsi üzrə bir tezis hazırlanıb çapa göndərilmiş və yerlərdə keçiriləcək konfrans üçün bukletlər hazırlanmışdır. Həmçinin, növbəti mərhələlərdə hazırlanacaq kitabın 50 faiz işləri hazırlanaraq tamamlanmışdır. |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>Aparılan ilkin müşahidə və sorğulardan bu nəticəyə gəlirik ki, yerli təşkilatlar ilk novbədə regionlarda gənclərlə bağlı problemlərin öyrənilməsi işinə diqqəti artırmalıdırlar. |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə layihə rəhbəri sosioloq və ekspertlərdən ibarət işçi qrup formalaşdırılmış, Daşkəsən, Beyləqan, Oğuz və Qəbələ üzrə səfərlər edilmişdir. Daşkəsən üzrə tələbələrdən və ekspertlərdən ibarət işçi qrub tədqiqatlar aparır. |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)*<br>Beyləqan, Oğuz. Qəbələ və Daşkəsən bölgələrinə elmi ekspedisiyalar təşkil edilmiş, bu səfərlərdə problemin həllinə yönələn işçi qrupları formalaşdırılmışdır. |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Gənclərin sosial drumuna yönələn seminarlarda iştirak edilmiş, həmin seminarlarda səslənən təklif və rəylər ümumiləşdirilərək nəzərə alınmışdır |

| | |
|---|---|
| | |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>Layihə rəhbəri olaraq üç elmi konfransda iştirak və çıxış etmiş və bir seminarda məruzə söyləmişəm.(xaricdə və ölkəmizdə) |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)* |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Daşkəsən, Beyləqan, Oğuz və Qəbələ  rayonlardının Gənclər və idaman idarələri, həmçinin ictimai və diğər dövlət qurumları ilə birbaşa əlaqələr davam etdirilir,Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq institut və şöbələri, həmçinin müstəqil ekspertlərlə fikir mübadiləsi aparılmışdır. Həmçinin regional təhsil müəsisələri və ali məktəblərlə işlər davam etdirilir. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)*<br>Layihənin əsas ana xəttini həm də sosioloji tədqiqat təşkil etdiyindən otuz nəfərə yaxın interver hazırlığı aparılmış, onlara treninqlər keçirilmişdir.  3 günlük treninqlərdə könüllülərə soğu üsulları öyrədilmişdir. |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| | |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)* |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)*<br>Nəşri nəzərdə tutulan kitabın yazılması davam edir. Xaricdə 3 məqalə nəşrə göndərilib. Sorğu nəticələrinin klassifikasiyası kodlaşdırılaraq növbəti mərhələdə aparılacaq sorğularla müqayisə ediləcək. |

**Layihə rəhbərinin imzası____________________İsmayılov Şahin Əmir oğlu**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.